# Unudulmaz Bakı

## Azərbaycan Qran-prisi möhtəşəm məqamlarla yadda qalır




**Dünyada avtomobil həvəskarlarının əsas bayramı hesab edilən "Formula-1" Azərbaycan Qran-prisinə ölkəmizin evsahibliyi etməsinin qürur və sevincini yaşamaqdayıq. Belə bir möhtəşəm yarışın sayca 8-ci dəfə Azərbaycanda keçirilməsi dünyaya azərbaycanlıların mehribanlığı, qonaqpərvərliyi, qədim tarixi, füsunkar təbiəti, mentaliteti, sürətlə inkişaf edən müasir ölkə ilə tanışlıq fürsəti verib.**



Çoxlu sayda siyasi, mədəni, idman və digər tədbirlərin ən mötəbər ünvanına çevrilən respublikamız növbəti beynəlxalq tədbirə layiqincə evsahibliyi etməklə dünyanın diqqətini Bakıya cəlb edib. "Formula-1" Azərbaycan Qran-prisi ilə bağlı Bakıya gələn hər kəs Azərbaycanın inkişafını, xalqımızın qonaqpərvərliyini, zəngin mədəniyyətini öz gözləri ilə görür. Bütövlükdə bu mötəbər tədbir Azərbaycanı növbəti dəfə beynəlxalq aləmə daha yaxından tanıdır.





Dünya Azərbaycanda keçirilən sürət yarışına hazırlıq işlərinin çox yüksək səviyyədə aparıldığının şahidinə çevrildi. Bunu sentyabrın 14-də ikinci yarış günündə də aydın şəkildə görmək olurdu. İlk növbədə "Azneft" dairəsindən Dəniz vağzalına kimi qurulan bütün əyləncə zonaları, "F-1" şəhərciyi bütün bilet sahiblərinin üzünə qapılarını açıb. Tamaşaçılar onlar üçün qurulmuş möhtəşəm əyləncə məkanlarından istifadə edirlər.

Tədbirlər isə hər kəs üçün inanılmaz dərəcədə maraqlı və unudulmayacaq məqamlarla yadda qalır. Üçgünlük tribuna biletlərinin sahibləri günorta saatlarında Pitleyn yürüşü edərək, "Formula-1" həyatını daha yaxından izləmək şansına malik olurlar. Tamaşaçılar komandaların qarajlarında dünyanın ən innovativ yarış avtomobillərinin mühəndis və mexaniklər tərəfindən necə sazlanması prosesini yaxından izləmək imkanını əldə edirlər. Bakı bulvarının əsas səhnəsində sürətsevərlər öz qəhrəmanları - dünyaca tanınmış pilotlarla avtoqraf sessiyalarında görüşürlər. Bu isə azarkeşlər üçün əsl hədiyyə olur. "Formula-1"in Azərbaycan nümunəsi yüksək səviyyədə hazırlıq, qonaqpərvərliklə dünyanı heyran edir, paytaxtımızda yarışan ən məşhur pilotların qəlbində dostluq, anlaşma, sevgi məşəli yandırır.

Beləliklə, ölkəmizə gələn turistlər, dünyanın aparıcı pilotları, avtomobil mütəxəssisləri Azərbaycanla daha yaxından tanış oldular, ölkəmizin inkişafını gözləri ilə gördülər. Azərbaycan bu yarışa yüksək səviyyədə evsahibliyi etməklə bir daha sübut etdi ki, beynəlxalq tədbirlərin keçirilməsi üçün əsas ünvanlardan biridir.

*E.CƏFƏROV,*
*"Azərbaycan"*



Azərbaycan. - 2024.- 15 sentyabr (№201).- S.15.